**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**RÖVŞƏN MƏMMƏDƏLİ OĞLU MƏMMƏDOV**

# MÜASİR UŞAQ NƏSRİ
# (1970-80-CI ILLƏR)

**5716.01 – Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2015**

Dissertyasiya Sumqayıt Dövlət Universitetinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Rafiq Yusif oğlu Əliyev**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Fəridə Ramiz qızı Səfiyeva**
filologiya üzrə elmlər doktoru, professor

**Qafar Möhsün oğlu Hüseynov**
filologiya üzrə elmlər doktoru

**Aparıcı təşkilat**: Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası

Müdafiə "_22___" 09_ 2015-ci ildə saat "____" – da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdindəki D 01.131 – Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ.1143, Bakı, H.Cavid prospekti 115, Əsas bina, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı, IV mərtəbə

Avtoreferat "____" ________ 2015-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə elmlər doktoru, professor:** **İmamverdi Yavər oğlu Həmidov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Uşaq ədəbiyyatı spesifik xüsusiyyətinə, tipologiyasına, təyinatına görə bədii yaradıcılığın mühüm bir sahəsini təşkil edir. Azərbaycan uşaq ədəbiyyatının zəngin ədəbi ənənələri, özünəməxsus inkişaf yolu, bədii-estetik xüsusiyyətləri vardır. A.Bakıxanov, M.Ş.Vazeh, S.Ə.Şirvani, F.Köçərli, M.Mahmudbəyov, A.Şaiq, C.Məmmədquluzadə, M.Ə.Sabir kimi maarifçi ədiblərimiz milli ədəbiyyatın bu sahəsinin yaranmasında, təşəkkülündə mühüm rol oynamışlar. XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərindən günümüzə qədər Azərbaycan uşaq ədəbiyyatı uşaq və yeniyetmələrin milli təfəkkürünün formalaşmasına, istiqlal ideyalarına xidmət etmiş, xalqımızın milli dəyərlərinin formalaşmasında əvəzsiz xidmət göstərmişdir. Bütün bu keyfiyyətlərinə görə uşaq ədəbiyyatımız hər zaman ədəbi-nəzəri fikrimizin diqqət mərkəzində olmuşdur. Tənqid və ədəbiyyatşünaslığımızda uşaq ədəbiyyatının həm elmi-pedaqoji, həm də filoloji aspektləri kifayət qədər öyrənilib. Ancaq bu əsərlərin böyük bir qismi sovet dövründə yazıldığı üçün ideoloji-siyasi prinsiplərdən, sosialist realizmin steorotiplərindən azad olmayıb.

Artıq Azərbaycan müstəqil dövlət kimi dünya birliyində, Şərq və Qərb regionlarında nüfüz sahibi olub. Dövlətçilik ənənələrmiz, müstəqil humanitar siyasətimiz tələb edir ki, ədəbiyyatımızın müxtəlif sahələri kimi, uşaq ədəbiyyatı problemlərini də milli dövlətçilik təfəkkürü istiqamətində yenidən tədqiq edək, sovet dövründə buraxılan nöqsan və çatışmazlıqlardan, valyuntarist ədəbi siyasətdən uşaq ədəbiyyatımızın tədqiqini uzaqlaşdıraq. Mövzunun aktuallığının əsası bununla bağlıdır.

Bu gün tənqid və ədəbiyyatşünaslığımızın qarşısında duran əsas məsələlərdən biri müstəqillik dövrünün tələblərinə uyğun uşaq ədəbiyyatı tarıxini hazırlamaqdır. Bunun üçün Azərbaycan uşaq ədəbyyatının ayrı-ayrı mərhələlərinin ədəbi yaradıcılıq axtarışlarına qiymət vermək, ədəbi mərhələlərin janr, üslub, bədii-estetik kateqoriyalarını müəyyənləşdirmək vəzifəsi meydana çıxır. Bu da mövzunun nə qədər əhəmiyyətli, aktual olduğunu təsdiq edir.

1970-1980-ci illər Azərbaycan uşaq ədəbiyyatı haqqında yazılmış bəzi tədqiqatlarda bu ədəbiyyatın demək olar ki, dramaturji və nəzəri istiqamətləri araşdırılmış, uşaq nəsrinin isə müəyyən mərhələsi tədqiqata cəlb edilmişdir. Ümumiyyətlə, ədəbiyyatın ümumi problemlərini, cari vazifələrini nəzərdən keçirərkən aydın olur ki, uşaq ədəbiyyatı həmişə ədəbi tənqidin diqqət mərkəzində olmuşdur. Lakin uşaq nəsri sahəsində

araşdırmalar zamanı əhəmiyyətli məsələlər – uşaq nəsrinin janrlarının ətraflı və sistemli şəkildə öyrənilməsi, uşaq xarakterlərinin əsərlərdə təsviri, bədii konflikt faktoru, milli dəyərlərin bədii əsərlərdəki dərki və s. kimi bədii komponentlər ədəbiyyatşünaslığımızda kifayət qədər öz əksini tapmamışdır. Buna görə uşaq nəsrinin spesifikasının, problematikasının, mövcud ədəbi-tarixi səciyyəsinin üzə çıxarılması əslində dövrün ədəbi-nəzəri fikrinin real vəziyyətini aşkara çıxarmaq baxımından da əhəmiyyətli görünür. Tədqiqatın mövzusunun aktuallığı ilk növbədə bununla izah edilə bilər.

Lakin problemin, mövzunun elmi aktuallığı yalnız bununla məhdudlaşmır. Bu faktor onun elmi aktuallığının əsas cəhəti olsa da, problemin tədqiqat aktuallığının digər istiqamətləri də vardır. Belə ki, 1970-80-ci illər uşaq nəsrində bədiilik, forma və məzmun vəhdəti, obrazların yüksək mənəvi-psixoloji qatlardakı bədii təsviri başlıca amil kimi özünü göstərirdi. Yazıçılarımız sənətə gətirdiyi məsələləri uşaqların yaş və milli psixologiyasına uyğun şəkildə qələmə almağa çalışırdılar. Çağdaş ədəbi tənqid və ədəbiyyatşünaslığımız ədəbi irsimizdəki bu cəhətlərə daha çox fikir verməlidir. Bu da mövzunun aktuallığından xəbər verir.

Azərbaycan uşaq ədəbiyyatının 1970-1980-ci illər mərhələsi, özəlliklə, bu dövrün nəsr əsərləri uzun müddət ədəbi tənqidin diqqətindən kənarda qalmış, bu sahədə baş verən yeniliklər lazımi səviyyədə araşdırılmamış, müxtəlif bədii istiqamətlərin elmi təhlili müasir dövrün tələblərinə uyğun aparılmamışdır. 1970-80-ci illər uşaq nəsrinin sistem halında, ümumi proses şəklində və ayrı-ayrı problemlər əsasında elmi-nəzəri cəhətdən şərh edilməli, ideya-bədii xüsusiyyətləri ədəbi-bədii və elmi faktlar əsasında yenidən tədqiqata cəlb olunmalıdır. Mövzunun aktuallığının əsas göstəricilərindən biri də budur.

**Tədqiqatın obyekti və predmeti.** Təqdim olunan elmi işin obyekti 1970-80-ci illər uşaq nəsrinin ideya-estetik xüsusiyyətləri, həmin dövr nəsr təfəkkürünün uşaq ədəbiyyatı yaradıcılığındakı real vəziyyətidir. Belə ki, tədqiq edilən dövrün uşaq əsərləri – hekayə, povest və ədəbi nağıllar sistemli şəkildə tədqiqata cəlb edilir. Eyni zamanda bu sahəyə həsr olunmuş ədəbi tənqid və ədəbiyyatşünaslıq faktları, bədii və elmi ədəbiyyatlar da tədqiqata cəlb edilmiş, qarşıya qoyulan problemlərlə bağlı mövcud bədii, ədəbi tənqidi materiallar araşdırılmışdır. Təhlilə cəlb edilmiş uşaq yazıçıları Z.Xəlil, Ə.Səmədli, N.Süleymanov, İ.Hümmətov, X.Hasilova, Ə.Əmrahov,

T.Mahmud və başqalarının bədii yaradıcılığı üzərində geniş araşdırmalar aparılmış, onların əsərləri müqayisəli şəkildə təhlil edilmişdir .

Tədqiqatın predmetini 1970-80-ci illər uşaq nəsri janrlarının, problematikasının, ideya-bədii xüsusiyyətlərinin, milli nəsrimizdəki yeri və mövqeyinin obyektiv-tarixi mövqedən elmi şəkildə qiymətləndirilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycan uşaq nəsrinin 1970-80-ci illər mərhələsini janr, üslub, mövzu, ideya, süjet xətti üzrə təsnif etmək, uşaq bədii nəsrinin mövcud bədii imkanlarını və yaradıcılıq istiqamətini müəyyənləşdirmək, bu ədəbiyyata verilən tələb və prinsiplərin tədqiqata cəlb edilən mətnlərdə nə dərəcədə öz əksini tapmasını dəqiqləşdirmək, uşaq bədii nəsrində tarixilik və müasirlik kateqoriyalarının dərkinə aydınlıq gətirmək, ənənə və novatorluğun uşaq bədii nəsrindəki izlərini aydınlaşdırmaq tədqiqatın əsas məqsəd və vəzifələri sırasındadır.

Mövzu daxilindəki ədəbi problemləri müəyyən bölgülər əsasında tədqiq etmək, ədəbi irsin ideya-bədii keyfiyyətlərini üzə çıxarmaq, mövzu və problematikasını təhlil etmək və elmi-müqayisə yolu ilə ümumiləşdirmək də tədqiqatın məqsəd və vəzifələrinə daxildir. Tədqiqat işində uşaq bədii nəsrinin keçdiyi yola nəzər salınır, şifahi xalq ədəbiyyatı nümunələrinin yaranmasından bu günə qədər davam edən ədəbi ənənələr araşdırılır, klassik nəsr nümunələri ilə çağdaş nəsr təhkiyəmiz arasında ədəbi paralellər aparılır, müqayisəyə cəlb olunan əsərlərdə yazıçı ideyasının nəyə xidmət etdiyi müəyyənləşdirilir. Tədqiqatın məqsəd və vəzifələri sırasında bunu da ayrıca qeyd etməyə ehtiyac vardır.

Dissertasiyada folklor ənənələrinin janr baxımından yeni prizmadan təhlili aparılır, mifoloji obrazların uşaq nəsrində yeri və rolu tədqiq edilir. Bir amili də qeyd etmək lazımdır ki, dissertasiyada uşaq nəsrinin hər bir janrına ayrıca yer verilmiş, təhlilə cəlb olunan əsərlər müasir ədəbiyyatşünaslıq meyarları ilə tədqiqat predmetinə çevrilmişdir ki, bu cəhəti də tədqiqatın məqsəd və vəzifələrindən hesab etmək olar.

1970-80-ci illərin bədii nümunələri əsasında Azərbaycan uşaq nəsrinin müasir mənzərəsini göz önündə canlandırmaq, onun ədəbi-bədii təsnifatını ön plana çəkmək, ədəbi-tarixi proses kontekstində 70-80-ci illər uşaq bədii nəsrinin yaradıcılıq nailiyyətlərinə qiymət vermək vacib bir ədəbiyyatşünaslıq vəzifəsi kimi qarşıda dayanır. Tədqiqat işində bu cəhətlər də başlıca məqsəd və vəzifə kimi öyrənilir. 70-80-ci illər Azərbaycan uşaq bədii nəsri haqqında müəyyən təsəvvür yaratmaq dissertasiyada qarşıya

qoyulan başlıca məqsəddir. Bu məqsədə nail olmaq üçün dissertasiya işində bir sıra vəzifələr yerinə yetirilmişdir:

- uşaq bədii nəsrinin 1970-80-ci illərdəki yaradıcılıq axtarışlarının istiqamətini müəyyənləşdirmək;
- dövrün uşaq nəsr əsərlərini janr cəhətdən təhlil etmək və əsas tendensiyaları ortaya çıxarmaq;
- dövrün uşaq nəsrində daha çox müraciət olunan mövzuları müəyyənləşdirərək konkret faktlar əsasında təhlil etmək;
- təhlilə cəlb olunan əsərlərdəki uşaq xarakterlərini müqayisəli şəkildə təhlil etmək, bədii-estetik dəyərlərin uşaq yaddaşına və bədii zövqünə təsirini aşkara çıxarmaq;
- görkəmli yazıçıların yaradıcılıqlarındakı sənətkarlıq xüsusiyyətlərinə ədəbi-nəzəri fikrin nə dərəcədə diqqət yetirməsinə obyektiv-tarixi mövqedən qiymət vermək;
- dövrün uşaq nəsr əsərlərində folklor motivlərini araşdırmaq, milli dəyərlərin bədii nəsrimizdəki folklor qatlarını üzə çıxarmaq, mövzu ilə bağlı əsərlərdəki mifoloji obrazların uşaqların tərbiyəsində əhəmiyyətini göstərmək.

**Tədqiqatin elmi yeniliyi.** Dissertasiyada tədqiq edilən dövr çoxəsrlik ədəbi-tarixi prosesin yeni bədii materiallar, intensiv axtarışlar fonunda davamı kimi elmi-nəzəri təhlil süzgəcindən keçirilir, yeni elmi nəticələr əsasında ümumiləşdirmələr aparılır.

Xüsusi olaraq qeyd edək ki, 1970-80-ci illər uşaq nəsri ilə bağlı bu günə qədər aparılan tədqiqatların əksəriyyətində əsərlərin ancaq ideya-məzmun xüsusiyyətlərindən bəhs olunmuş, sosioloji tədqiqat üsuluna üstünlük verilmiş, bədii sənətkarlıq üçün vacib komponentlər olan sənətkarlıq məsələləri unudulmuşdur. Dissertasiyada 70-80-ci illər Azərbaycan uşaq nəsrinin bədii-estetik sistemi ilk dəfə olaraq yeni ədəbiyyatşünaslıq metodologiyası ilə tədqiqat predmetinə çevrilir.

70-80-ci-illər uşaq bədii nəsrində təhkiyə yeniliyi, süjet və kompozisiya özünəməxsusluğu, nəsr dili və üslubunun folklor qatları, uşaq bədii obrazları və şifahi xalq ədəbiyyatındakı ənənəvi obrazlar sistemi arasındakı bağlar ilk dəfə bu tədqiqat işində hərtərəfli şəkildə öyrənilir.

Milli ədəbi-tarıxi proses mücərrəd, ayrıca götürülmüş sənət və ədəbiyyat hadisəsi deyil. Bu tədqiqat işində 70-80-ci illər Azərbaycan uşaq nəsri tarixi-mədəni konteks daxilində öyrənilir, janrın ümumi poetik strukturu, təkamül tarixi, ənənələri araşdırılır.

Bunu da elmi yenilik kimi qəbul etmək lazımdır ki, dissertasiyada 70-80-ci illər uşaq nəsri yalnız poetikanın müxtəlif, ayrı-ayrı kateqoriyaları olan üslub, janr, bədii metod, obraz və bədii qəhrəman, bədii əsərin süjet-kompozisiya strukturu nöqteyi-nəzərindən deyil, eyni zamanda, bütöv bir sistem, vahid elmi kompozisiya daxilində təhlil olunur, bunu da dissertasiyanın elmi yeniliyinə aid etmək faydalı olar.

Qeyd etmək lazımdır ki, mövzuya müasir ədəbiyyatşünaslıq standartları ilə yanaşma, çağdaş elmi-metodoloji istiqamətlərdən bəhrələnmə, yeni, orijinal fikir söyləmək bacarığını və istəyini də elmi yenilik kimi qiymətləndirmək olar.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Tədqiqat tarixi-müqayisəli metod və obyektiv həqiqəti təyin etməyə imkan verən tarixilik prinsipi ilə yazılıb. Ədəbi tarixi və tarixi-müqayisəli tədqiqat üsulu dissertasiya işinin əsas tədqiqat metodologiyasıdır. Mövzunun tarixi inkişaf istiqamətində işlənməsi uşaq ədəbiyyatının, xüsusilə, uşaq nəsrinin hansı yollardan keçib gəldiyini, onun mərhələ və tipoloji istiqamətlərini müəyyənləşdirməyə imkan verir. Təbii ki, tədqiqat prosesində müəyyən müqayisəli-tipoloji məqamlara da diqqət yetirilmişdir. Bundan başqa uşaq nəsrinin tarixi və təşəkkülünə aid mövcud tədqiqatların nəticələri dissertasiya işinin nəzəri əsasını təşkil edir.

**Mövzunun işlənməsi.** Uşaq ədəbiyyatı milli məfkurə, gəncliyin əxlaqının saflaşması, onların bədii zövqünün formalaşması ilə bağlı olduğuna görə daim həm tədqiqatçıların, həm də dövlətin diqqət mərkəzində olub. Sovet hakimiyyəti uşaq ədəbiyyatına xüsusi fikir verməklə, marksist dünyagörüşünü yaymaq məqsədi güddüyü kimi, müstəqil dövlətimizdə də uşaq ədəbiyyatının tədqiqi və təbliği müstəqillik ideyalarının, mənəvi dəyərlərin qorunmasına xidmət edir.

İndiyə qədər M.Rzaquluzadə, S.Vurğun, B.Nəbiyev, Q.Namazov, Z.Xəlil, R.Yusifoğlu, C.Əhmədov, F.Əsgərli kimi yazıçı və alimlərimiz uşaq ədəbiyyatının mahiyyəti, spesifik xüsusiyyətləri, üslub, janr özünəməxsusluğu haqqında müxtəlif əsərlər, məqalələr yazıb, bu sahənin elmi mənzərəsinin yaranmasına nail olublar. Bu tədqiqatlar ancaq milli çərçivə ilə məhdudlaşdırılmayıb, eyni zamanda, V.İ.Belinski, İ.Motyaşov, A.P.Babuşkina, V.Y.Propp, P.N.Boratav kimi dünyada tanınan uşaq ədəbiyyatı mütəxəssislərinin tədqiqatlarından da fayda görürülmüşdür.

Məlumdur ki, milli ədəbiyyat tarixini öyrənmək sahəsində ədəbiyyatşünaslığımızın zəngin ənənəsi vardır. Bu məsələ ilə bağlı bir sıra tədqiqat işləri, monoqrafiya və kitablar yazılıb. Belə ki, “Azərbaycan sovet

uşaq ədəbiyyatının inkişaf yolu" (Ə.Əzizov – 1963), "Azərbaycan uşaq ədəbiyyatı" ("Dəbistan", "Rəhbər" və "Məktəb" jurnalları əsasında – Ə.Məmmədov – 1977), "Azərbaycan uşaq ədəbiyyatı" (Q.Namazov – 1984), "Azərbaycan uşaq ədəbiyyatı tarixi" (F.Fərhadov, A.Hacıyev – 1986), "Azərbaycan sovet uşaq nəsri" (A.Hacıyev –1989), "Müasir uşaq nəsrinin inkişaf problemləri (1970-80-ci illər)" (Q.Rüstəmova – 1997), "Azərbaycan uşaq ədəbiyyatında ənənə və novatorluq" (C.Məhərrəmova – 1998), "Azərbaycan ədəbi-nəzəri fikrində və tənqidində uşaq ədəbiyyatı məsələləri" (X.Mustafayeva – 2010), "Müasir uşaq dramaturgiyası" (S.Məmmədova – 2005), "1970-80-ci illərdə Azərbaycan uşaq ədəbiyyatının ideya-bədii istiqamətləri" (V.Əliyev – 1996), "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı" (F.Əsgərli – 2009) kimi tədqiqat işlərində uşaq ədəbiyyatınn yaranması, təşəkkülü, inkişaf mərhələləri hərtərəfli öyrənilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyada 70-80-ci illər uşaq bədii nəsrinin poetikası mövzusuna nəzəri aydınlıq gətirilir, ədəbi-tarixi gerçəklik yüksək nəzəri meyarlarla tədqiq olunur. Deyə bilərik ki, nəsrimizin müəyyən mərhələsinin öyrənilməsində bu təqqiqatın elmi nəticələrindən bəhrələnmək olar. Bundan başqa, klassik Azərbaycan uşaq nəsrinin, realist uşaq nəsrinin, eyni zamanda, sovet dövrü uşaq nəsrinin əsas prinsiplərinin nəzəri və tarixi poetika baxımından tədqiqində, müxtəlif uşaq yazıçılarının yaradıcılığının təhlilində bu əsər ədəbi-nəzəri baza funksiyasını təşkil edər.

Dissertasiyada ənənəvi sosioloji təhlildən fərqli olaraq sənətkarlıq məsələləri daha çox diqqət mərkəzinə gətirilir. Realist Azərbaycan uşaq nəsrinin "yeni nəsr" nümunələri olduğu burada nəzəri və tarixi poetika baxımından şərh olunur. Bu cəhət dissertasiyanın nəzəri əhəmiyyətinin birbaşa əsas gösəricilərindən biridir.

Dissertasiya Azərbaycan uşaq nəsrinin öyrənilməsində elmi mənbə kimi diqqəti cəlb edir. Azərbaycan uşaq nəsrinin araşdırılıb öyrənilməsi, 70-ci illərdə keçmiş sovet məkanında, o cümlədən, Azərbaycanda baş verən ideoloji proseslər və bunların uşaq ədəbiyyatına təsiri, dövrün uşaq nəsr əsərlərinin müasir prizmadan təhlili dissertasiyada öz əksini tapmışdır. Uşaq nəsrimizin bir sıra aktual problemlərinin öyrənilməsində də dissertasiya işi elmi-nəzəri və tədqiqi əhəmiyyətə malikdir. Bu baxımdan dissertasiya və onun məzmununu əhatə edən elmi nəticələr sonrakı tədqiqatlarda istifadə edilməklə yanaşı, ali təhsil müəssisələrin filoloji

fakültələrində dərslik və dərs vəsaiti, elmi-praktik ədəbiyyat kimi istifadə edilə bilər.

**İşin aprobasiyası.** Mövzu SDU-nun "Azərbaycan və xarici ölkələr ədəbiyyatı" kafedrasında Azərbaycan ədəbiyyatının aktual problemləri elmi istiqamətinə uyğun olaraq yerinə yetirilmişdir. Əldə edilən elmi nəticələr, dissertasiyanın əsas məzmunu, tədqiqat konsepsiyası elmi jurnallarda, beynəlxalq konfranslardakı çıxışlarda, həmçinin, xarici ölkə jurnallarında nəşr edilmişdir.

**İşin strukturu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Tədqiqatın **"Bədii nəsr ənənələrinin uşaq bədii nəsrinin janr, üslub təkamülünə təsiri"** adlı birinci fəsli üç bölümü əhatə edir. Fəslin birinci bölümü" **Milli ədəbi ənənələr və bunun bədii nəsrimizin formalaşmasına, yeni mərhələyə daxil olmasına təsirləri"** adlanır. Bölümdə Azərbaycan uşaq bədii nəsri milli ədəbi-tarixi prosesin ümuminkişaf istiqamətləri fonunda tədqiqata cəlb olunur. Nəsrimizin ən yaxşı ənənələrinin uşaq bədii nəsrindəki davamı müasir ədəbiyyatşünaslıq meyarları ilə izlənilir.

60-cı illərdə sovet siyasi sistemində baş verən demokratikləşmə və yeniləşməyə olan meyllər uşaq ədəbiyyatının həm məzmun, həm də forma təkamülünə səbəb oldu, uşaq və yeniyetmələr üçün yaranan əsərlərin bədii-estetik səviyyəsi yüksəldi. Bu vacib ədəbi-tarixi prosesdə Azərbaycan uşaq bədii nəsrində yeni insan amili ön plana keçdi. İnsan bədii təfəkkürürünün daim qayğısında olan bu problem yeni tarixi şəraitdə daha böyük aktuallıq kəsb etmişdi. Necə etməli ki, insanlar bir daha bir-birinin qəniminə çevrilməsin, atalar oğulsuz, uşaqlar nağılsız qalmasın; müharibələr, insanlığı və insanları məhv edən qanlı repressiyalar olmasın, bir sözlə cəmiyyət insan amilinə böyük dəyər versin. 60-80-ci illər uşaq bədii nəsrimizin başlıca qayğıları bundan ibarət idi.

Bu baxımdan 1970-80-ci illər uşaq ədəbiyyatının inkişafı əvvəlki onilliklərin ədəbiyyatından fərqlənir. Belə ki, adı çəkilən dövrün uşaq nəsri istər janr baxımından, istərsə də mövzu cəhətdən olduqca rəngarəngdir. Artıq yaranan əsərlərdə insana, onun daxili aləminə diqqət dərinləşdi, xüsusilə, milli-mənəvi dəyərlər qabarıq şəkildə təzahür etməyə başladı. Əvvəlki onilliklərdəki sxematik, quru, şablon obrazlardan imtina olundu,

obrazın daxili dünyasının açılmasına yönələn sənənkarlıq tələblərinə ciddi fikir verildi.

Yeni yazılan əsərlərdə uşaq obrazları əvvəlki onilliklərdən fərqli olaraq daha mükəmməl təsir bağışladı, uşaq və yeniyetmələrin marağından uzaq olan  dialoqları daha maraqlı, canlı, günün tələblərinə cavab verən diaoqlar əvəz etdi. Bədii obrazlar öz bilik və yaş həddinə uyğun danışmağa başladı ki, bu da uşaq bədii nəsrinin yeni inkişaf yolunda olduğunu göstərdi. İlk növbədə milli ədəbiyyatımız məhdud çərçivədən, şəxsiyyətə pərəstişin buxovundan, ən əsası isə konfliktsizlik nəzəriyyəsinin dar çərçivəsindən azad oldu.

Birinci fəslin "**Azərbaycan uşaq hekayələrinin mövzu və janr tipologiyası**" adlı ikinci bölümündə Azərbaycan uşaq hekayələrinin ideya-məzmun və sənətkarlıq xüsusiyyətlərindən bəhs olunur. Təbii ki, 70-80-ci illərin uşaq hekayələri həmin dövrün milli nəsr təfəkkürünün bir hissəsi kimi özünü göstərirdi. Bölümdə tədqiq olunan dövrün uşaq hekayələri təhlil olunur, XX əsr Azərbaycan hekayələrinin milli və ümumbəşəri dəyərləri araşdırılır.

Hekayə janrı 60-cı illərdən başlayaraq nəinki milli ədəbiyyatımızda, həmçinin, dünya və Avropa ədəbiyyatında aparıcı janr kimi geniş vüsət almış, daha sonrakı mərhələdə ədəbi prosesin kifayət qədər fəal və canlı bir janrını təşkil edən hekayə ədəbiyyatımızın aktual sahəsi olaraq  öz əhəmiyyətini qoruyub saxlamışdır.

1970-80-ci illər Azərbaycan uşaq hekayələrinin əsas mövzu və ideyasını müasir dövrdə, konkret tarixi-ictimai zəmində baş verən hadisələr təşkil edirdi. Həm də bu hekayələr kiçik yaşlı oxucularla yanaşı, böyüklərin də maraq dairəsinə çevrilmiş, süjet xəttindəki hadisələr ümumilikdə, cəmiyyətin  əsas problemləri ilə üst-üstə düşmüşdür. Maraqlı cəhət budur ki, bu dövrün hekayələri ənənəvi xarakter daşımaqla bərabər, həm də novator keyfiyyətləri ilə diqqəti cəlb edirdi. Bu da ədəbiyyata daha sonra gələn gənc yazarlar üçün örnək olurdu. Hələ keçən əsrin əvvəllərində görkəmli yazıçılarımızın bəzi əsərləri orta məktəb dərslikləri və uşaq mətbuat orqanlarına daxil edilirdi. "Buz", "Saqqallı uşaq", "Usta Zeynal", "Zırrama" (C.Məmmədquluzadə), "Qatil uşaq", "Ümid çırağı" (S.S.Axundov), "Qayçı" (T.Ş.Simürq), "Dilarə", "Cocuq", "Aslan və Fərhad" (C.Cabbarlı) və s. hekayələr həm böyüklər, həm də kiçiklər üçün nəzərdə tutulmuşdu və bu hekayələrdə qaldırılan məsələlər cəmiyyətin sosial-mədəni həyatını əks etdirirdi.

70-80-ci illərdə hekayə janrına müraciət edən yazıçılarımız sənətin bu təməl prinsiplərinə daim əməl etməyə çalışırdılar. Məhz adı çəkilən dövrdə uşaq yazıçıları seçdikləri mövzuları əsasən hekayə vasitəsilə kiçik yaşlı oxuculara çatdırırdılar. Mövzu rəngarəngliyi baxımından 1970-80-ci illər uşaq nəsri daha çox ənənəvi istiqamətdə inkişaf edirdi. Bu da təbii bir hal kimi qəbul edilməlidir, çünki nə vətənpərvərlik, nə təbiət, nə də elm və təhsil problemləri mövzuları dəbdən düşüb unudulan həyati problemlər sırasına keçmir, lakin bunlarla yanaşı, sovet ideologiyasını tərənnüm edən əsərlər də az deyildi. Mövzu və problematika baxımından oxşar olsa da, hər bir nasir hadisələrə müxtəlif prizmadan yanaşır, onları özünəməxsus şəkildə təsvir və təqdim edərək oxucuların istifadəsinə verirdilər.

**"Uşaq nəsrində povest və roman yaradıcılığının bədii-estetik xüsusiyyətləri"** adlanan birinci fəslin üçüncü bolümündə nəsrimizin ümumi konteksti fonunda uşaq povest və roman yaradıcılığının tipoloji xüsusiyyətləri tədqiqat predmeti kimi götürülür. Nəsrin irihəcmli sahəsinə uşaq ədəbiyyatının ehtiyacını şərtləndirən sosial-mədəni amillər burada həm ədəbi-tarixi, həm də nəzəri səpgidə tədqiqata gətirilir, Avropa və dünya ədəbiyyatında povest və roman yaradıcılığının ümumi mənzərəsi ilə Azərbaycan nəsr təfəkkürünün konkret zaman kəsiyindəki vəziyyəti müqayisə edilir, milli nəsrin bədii-estetik sistemi haqqında müəyyən təsəvvür yaradılır.

Psixoanalitika elminin inkişafı ilə əlaqədar insanın daxili-mənəvi aləminin getdikcə daha dərindən öyrənilməsi, ictimai münasibətlər və kommunikasiya şəbəkəsinin mürəkkəbləşməsi nəticəsində 1970-80-ci illər milli ədəbiyyatımızda müasir insan xarakterinin geniş və dolğun təsvir edilməsi problemi meydana çıxmışdı. Doğru qeyd edildiyi kimi "bu problem yazıçı təsvirlərinin daha da təkmilləşməsini, təsvir ustalığının artırılmasını, həyati proseslər içərisindən ümumi və fərdi xüsusiyyətlərin ayırd edilib bədii təhlil süzgəcindən keçirilməsini tələb edirdi".[1]

Uşaq bədii nəsrində hadisə və münasibətlərin dolğunluğu, obrazların mükəmməlliyi bədii effekt yaradırdı. Bu faktor da povestlərdə daxili monoloqun və müəllif səciyyələndirmələrinin aktivləşməsini, qəhrəmanların hərəkətlərindən çox düşüncələrinin, müəyyən vaxt və məqamlarda keçirdikləri psixoloji halların dəyərləndirilməsini, onun daha dəqiq bədii təsvirini tələb edirdi. 1970-1980-ci illər Azərbaycan uşaq

---

[1] Vəliyev İ. İnsan: həyatda və sənətdə. Bakı: Günəş, 1998, s. 53

ədəbiyyatında bu cəhəti Z.Xəlil, E.Mahmudov, X.Hasilova, N.Süleymanov, Ə.Babayeva, T.Mahmud, Ə.Əhmədova, B.Həsənov, M.Aslan kimi uşaq yazarlarının əsərlərində görmək mümkündür.

70-80-ci illər uşaq yazıçılarının əsərlərinə diqqət yetirsək görərik ki, onlar kiçiklər üçün nəzərdə tutulan ədəbiyyatın əsas vəzifəsini ancaq uşaqların əylənməsindən ibarət hesab etmir, daha çox uşaq və yeniyetmələrin təfəkkürünə, ağlına və biliyinə təsir göstərmək imkanları axtarır, onların gündəlik fəaliyyətindən çox şəxsiyyətini, mənəviyyatını açmaq, təhlil və əks etdirmək yolu ilə gedir, real həyat gerçəkliyini təsvir edir və bütün bunları bədii mühakimənin mövzu və predmetinə çevirirdilər. Buna görə də həmin yazıçıların əsərləri daha çox yadda qalırdı. “Pərvizin həyatı” (M.İbrahimov), “Anar”, “Sabun köpükləri” (Z.Xəlil), “Mən tək deyiləm”, “Cırtdan şəhərdən qaçıb” (Ə.Babayeva), “Artıq tamah”, “Kibrit çöplərinin macərası” (Ə.Səmədli), “Dağlarcanın ağ qovaqları” (Ə.Mustafayev), “Yaşıl ayna”, “Meşədə” (X.Hasilova), “Göy qurşağı” (N.Süleymanov), “Gecə qapı döyülür”, “Tibb bacısı Leyli” (T.Mahmud), “Ayaz”, “Yadigar” (B.Həsənov), “Qaravun dərənin adamları” (E.Baxış), “Nailənin sevinci” (Ə.Əmrahov), “Arzular” (L.Əhmədova) və s. kimi əsərlər uşaqların həyatını və xarakterini ən müxtəlif səpkidə əks etdirən əsərlər hesab olunurdu. Bu əsərlərdə cəmiyyətimizin real, gündəlik həyatına həssas münasibət göstərilir, yeni insani keyfiyyətlərin nəsr təfəkkürünə yerləşdirilməsinə uğurlu cəhdlər edilirdi.

İkinci fəsil **“Uşaq bədii nəsrində obrazlar sistemi: əxlaqi-mənəvi dəyərlərin bədii nəsrdə estetik ifadəsi”** adlanır. Fəslin “**Uşaq bədii nəsrində xarakter problemi”** adlı birinci hissəsində bədii yaradıcılıqda mühüm əhəmiyyət kəsb edən bədii xarakter məsələsi elmi müstəvidə tədqiqata gətirilir. 70-80-ci illərin uşaq bədii nəsrində xarakter probleminin qoyuluşu və həlli ədəbi-tarixi, elmi-nəzəri və poetik-struktur baxımından tədqiqat sferasına daxil edilir.

Xarakter problemi hər zaman ədəbiyyatşünaslığın prioritet məsələlərindən olmuş, həmçinin, bütün ictimai formasiyalarda fəlsəfənin, psixologiyanın, sosiologiyanın ən başlıca problemlərindən biri sayılmışdır. Qeyd etmək lazımdır ki, xarakter insanın ictimai mövqeyindən, psixologiyasından, əxlaqi keyfiyyətlərindən irəli gəlir, istək və arzularında, hiss və həyəcanlarında, əməli fəaliyyətində təzahür edir. İnsanın müxtəlif cəhətlərinin, ayrı-ayrı özəlliklərinin məcmusu xarakterin formalaşmasına

zəmin yaradır. Bu da həqiqətdir ki, "xarakter ictimai mühitin mənfi və müsbət, zəif və qüvvətli cəhətlərinin aynasına çevrilmişdir".[1]

Tədqiqata cəlb olunan problem baxımından 70-80-ci illər həqiqətən əlamətdar və yaddaqalandır. 70-80-ci illər ədəbi mühitində gedən proseslər uşaq ədəbiyyatında da yeni insan surətlərinin (uşaq xarakterləri) yaranmasına zəmin yaratdı. Qocaman yazıçılarla yanaşı, gənc uşaq nasirləri də yazdıqları əsərlərində əvvəlki dövrlərdən fərqli yeni, tam müasir uşaq xarakterləri yaratmağa başladılar. Daha çox xarakterlərin daxili hisslərinin, düşüncələrinin ifadəsinə üstünlük verən sənətkarlar diqqətlərini çağdaş həyatın gedişinə mane olan cəhətlərə yönəltdilər. Yeni uşaq xarakterləri artıq köhnəliyi qəbul etmir, dünyanı bir rəngdə görmək istəmir, "yeniləşən dünya"ya müxtəlif istiqamətlərdən baxır, hətta özlərindən yaşca böyük olan insanlara "məsləhət" verməkdən belə çəkinmirlər. Zaman-zaman böyükləri onları başa düşməməkdə günahlandıran uşaqlar kiçik yaşlarından "azadlığa" can atırlar.

Şübhəsiz ki, 1970-80-ci illərin ədəbi qəhrəman, xarakter problemi uşaq nəsrinin ən ümdə məsələsi idi. Çünki o dövrdə uşaqlarda möhkəm xarakter tərbiyə etmək, onların şəxsiyyət kimi formalaşmasına yardım etmək uşaq ədəbiyyatının qarşısına qoyulan başlıca tələb idi. Görkəmli yazıçımız M.İbrahimov yazırdı: "Uşağın zövqü, həyat hadisələri haqqında anlayışı ilk oxuduğu kitabların təsiri altında müəyyənləşməyə başlayır. Uşaqlar ədəbi qəhrəmanlara çox həssas yanaşır və özlərini onlara oxşatmağa çalışırlar. Buna görə də uşaq ədəbiyyatında güclü xarakterlər yaradılmasına bu gün də böyük ehtiyac hiss olunur". ("Azərbaycan" jurnalı №3, 1970)

Bütün bunları nəzərə alan gənc uşaq yazarları yazdıqları əsərlərdə daha dolğun xarakterlər yaratmağa başladılar və bu xarakterlərin daxili aləmlərinin lirik-psixoloji təsvirində çağdaş metodlardan, yeni üsul və vasitələrdən, orjinal ifadə çalarlarından istifadə etdilər.

**"Bədii konfliktin həllində əxlaqi-mənəvi dəyərlərin rolu"** adlanan ikinci fəslin ikinci hissəsində uşaq bədii nəsrində konfliktin bədii həllində mühüm rol oynayan amillərə nəzər yetirilir, bu prosesdə əxlaqi-mənəvi dəyərlərin roluna işıq salınır. Ən başlıcası budur ki, "əxlaqi-mənəvi dəyər" anlayışına marksist estetikanın ədəbi prinsiplərindən fərqli mövqe nümayiş

[1] Yusifoğlu R. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Şirvannəşr, 2005, s.44

etdirilir. Belə ki, əxlaqi-mənəvi dəyərlər sistemində milli təfəkkür faktoruna daha çox üstünlük verilir.

Mənəvi-əxlaqi cəhətdən zəngin olan insan son dərəcə tükənməz bir aləm, mürəkkəb, çoxşaxəli, hissi, idrakı geniş və dərin olan, daxili dünyasının sonu görünməyən, böyük, qüdrətli bir varlıq, misilsiz, zəngin xəzinədir. Bu xəzinəni bütövlükdə və birdəfəlik təcəssüm etdirmək, "insan sirrini" (Dostoyevski) açmaq ədəbiyyatın əzəli və əbədi işidir.[1] 1970-80-ci illərin nəsri bu problemin ayrı-ayrı tərəflərini, səciyyəvi cəhətlərini üzə çıxarmaqla bir tərəfdən diqqəti bu problemin qloballığına, müasirliyinə, mürəkkəb, ziddiyyətli, son dərəcə əhatəli olmasına cəlb edir, digər tərəfdən də bu təmayülə həvəsi, tələbi və marağı gücləndirirdi. Məhz bu səbəbdən 1970-80-ci illər uşaq nəsri mənəvi-əxlaqi kamillik kəsb edən insanın qüdrətini, cəmiyyətin qeyri-normal və neqativ hallarına qarşı mübarizə gücündə, öz paklığı ilə cəmiyyətə təsir etmək, nümunə göstərmək cəhətlərində görürdü. Ona görə də yeni uşaq xarakterlərinin yaranması olduqca vacib məsələ idi.

Ortaq bir missiyanı yerinə yetirən bu xarakterlər istər yaşam tərzi, istərsə də öz intellekt səviyyələrinə görə əvvəlkilərdən kəskin surətdə fərqlənirdi. Tədqiqatçı Xanım Mustafayeva yazır: "1960-80-ci illərdə uşaq əsərlərindəki obrazlar əvvəlki onilliklərdən xeyli fərqlənirdi. Onların təsvirində yalnız tünd qara və yaxud ağ rənglərdən istifadə edilmirdi. Ədəbi obrazlarda dolğunluq, yetkinlik, milli kökə və ənənələrə bağlılıq daha çox nəzərə çarpırdı. Hiss olunurdu ki, sosialist realizmi nəzəriyyəçiləri kommunist dünyagörüşündəki əsas ideoloji-siyasi platformanı saxlamaqla yanaşı, sovet ədəbiyyatının yaşaması və özünü təsdiqi üçün ciddi zəmin hazırlayır".[2]

Bir məsələni də qeyd etmək lazımdır ki, gənc yazıçılar nəsli daha qlobal, ümumbəşəri məsələləri uşaq nəsrinə gətirməklə onu marksist estetikasının steorotiplərindən qismən də olsa uzaqlaşdırırdılar. Onların yaratdığı xarakterlər artıq tam müasir düşüncə sahibləri kimi görünürdülər. Yeniliyi daha yaxşı hiss edən sənətkarlar milli kökə söykənərək xalq ədəbiyyatı ruhunda nağıl qəhrəmanlarına üz tutur, bəziləri isə yazıçı təxəyyülünün genişliyinə arxalanaraq tam fərqli xarakterlər yaradırdılar. Qasım Qasımzadə "Ədəbiyyatda millilik və beynəlmiləllik" adlı tədqiqat işində doğru olaraq qeyd edir ki, xalq həyatının müəyyən əlamətlərini

---

[1] Abbasova S. İsi Məlikzadənin yaradıcılığı. Bakı: Nurlan, 2001, s.24

[2] Mustafayeva X. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Elm, 2011, s.183

ümumiləşdirən obrazlar milli psixologiyanın inikasına çevrilir. O şəxsin milli özünüdərkini, milli xarakerini başlıca əlaməti hesab edərək yazır: "Milli xarakter xalqın ruhi aləminin əlamətlərini əsrlərcə saxlayan ümummilli kateqoriyadır, eyni zamanda tarixi şəraitin məhsuludur. Buna görə də zaman-zaman təkmilləşmədədir".[1]

70-80-ci illər uşaq bədii nəsrində xalq ədəbiyyatımızın ən məşhur obrazı olan Əhməd əksər uşaq yazıçılarının sevimlisi olduğu üçün bu xarakterə daha çox müraciət edilirdi. Odunçu Əhməd (Ə.Səmədli – "Sehrli xalça"), Balqabaq Əhməd (Z.Xəlil – "Qəlbinurun başına gələnlər"), dəmirçi Əhməd (T.Mahmud – "İşıq"), bülbül Əhməd (Ə.Babayeva – "Bülbülün nəğməsi"), Qorxaq Əhməd (Həbibə - "Əkil-Bəkil quş idi") kimi obrazlar ədəbi nağılların ənənəvi qəhrəmanları idi. Bu Əhmədlər hər zaman şər qüvvələrə qarşı mübarizədə ən öndə gedən qəhrəmandır. Yoxsullara, ahıl yaşlı insanlara, köməksiz, ac-yalavac uşaqlara yardım edən Əhməd kiçik olmasına baxmayaraq, hətta qəddar, zalım padşahlar, küpəgirən qarılar, bədheybət Divlərlə mübarizəyə girməkdən belə çəkinmir. İstər odunçu, istər dəmirçi, istərsə də "balqabaq" olmasına baxmayaraq, hər zaman əməksevər, çalışqan, ən əsası güclü xarakterə malik olduğu üçün Əhməd obrazı kiçik oxucuların ən sevimli qəhrəmanıdır. Bu obraz eyni zamanda, xalq müdrikliyinin, onun əxlaqi-mənəvi dəyərlərinin ən parlaq təzahürüdür.

İkinci fəslin üçüncü hissəsi "**Müsbət və mənfi obrazların ədəbi əsərlərdəki mövqeyi və bunun uşaq təfəkkürünə təsiri"** adlanır. Bəşər tarixi yaranan gündən xeyirlə şər, işıqla qaranlıq, ədalət ilə zülm daim mübarizədədir. Türk mifik təfəkküründən qaynaqlanan bu problem şifahi xalq ədəbiyyatımızda, klassik romantik poeziyamızda, realizm və romantizm ədəbi məktəblərində də davam etdirilmiş, insan cəmiyyətini daim düşündürən ictimai münasibətlər sistemi və bu müstəvidə Əhrimanla Hörmüzün mübarzəsi bədii ədəbiyyatın da başlıca problematikasına çevrilmişdir. Ədəbi ənənəyə söykənən uşaq bədii nəsri də bu mübarizənin bədii həllini müəyyənləşdirməyə çalışmışdır.

Bədii əsərləri obrazsız təsəvvür etmək olmaz. Obrazların mükəmməlliyi, bitkinliyi əsərin bədiilik meyarlarına da təsir edir. Bu obrazlar, surətlər dünyagörüşü, ətrafındakı insanlara münasibəti etibarilə müxtəlif olur. Onların hər biri öz fərdi xüsusiyyətlərinə görə ayrıca xarakter olmalarına baxmayaraq, əsərdə təsvir edilən hadisələrin gedişində

---

[1] Yusifoğlu R. Azərbaycan poeması: axtarışlar və perspektivlər. Bakı: Elm, 1998, s.192

tutduqları mövqeyə, yazıçının irəli sürdüyü ideyaya münasibət baxımından müsbət və mənfi olmaqla iki qrupa ayrılır. Əsərdə irəli sürülən ideyanın daşıyıcısı olub, cəmiyyət tərəfindən təsdiq və qəbul olunmuş dəyərlər sisteminə uyğun düşünən və hərəkət edən obraz müsbət surət, normaların əksinə fəaliyyət göstərənlər isə mənfi surətlərdir.

Bütün bu proseslər uşaq ədəbiyyatında da hiss olunmağa başladı. Uşaqlar üçün nəzərdə tutulan əsərlərdə qəhrəmanlar ağıllı, nizam-intizamlı, böyüklərə hörmətlə yanaşan müsbət surət kimi təsvir edilsələr də, onların hərəkət və davranışlarındakı nöqsanlar da az deyildi. Təbii ki, əsərlərdəki müsbət surətlərin də bəzi nöqsanları olur, onlar ictimai həyatda, hərəkət və davranışlarında müəyyən qüsurlara yol verirlər. Lakin bu qüsurlar obrazı mənfi qütbü təmsil edən insanlar sırasına salmır, çünki onların buraxdığı nöqsanlar o qədər də faciəli olmur, ətrafındakı insanların ümumi işi ilə ziddiyyət təşkil etmir, zaman keçdikcə peşmançılıq çəkir, öz səhvlərini anlayır, onu aradan qaldırır, getdikcə kamilləşirlər. Bir faktoru da qeyd etmək lazımdır ki, uşaq yazıçıları bəzi əsərlərdə müsbət obrazlar yaratmasalar da, əsərin əsas ideyasını baş qəhrəmanın timsalında təsvir edirdilər. Belə ki, əsərin əsas qəhrəmanı yaranmış münaqişələrdə daim həmyaşıdları ilə bir yerdə olur, qarşıya çıxan çətinlikləri birlikdə dəf edirlər. Görkəmli ədəbiyyatşünas Y.Qarayev yazır ki, "Qüvvətli müsbət qəhrəman istinasız olaraq hər əsərdə olmaya da bilər, lakin qüvvətli insan ideyası istinasız olaraq hər əsərdə olmalıdır".[1]

Uşaq ədəbiyyatında müsbət və mənfi obraz problemi böyüklər üçün olan ədəbiyyatdan öz sadəliyi ilə seçilir. Burada mənfi obrazlar əsasən dəcəl, nizam-intizamsız, dərsini pis oxuyan, zərərli vərdişlərə yiyələnən kiçik yaşlı uşaqlardır. Ədəbi nağıllarda mənfi obrazları şər qüvvələr – divlər, təpəgözlər, küpəgirən qarılar, qəddar padşahlar, əcinnələr, xortdanlar, şeytanlar, müsbət obrazları isə cəsur, ağıllı, qəhrəmanlar, qoca, müdrik ağsaqqal və ağbirçəklər, bunlarla yanaşı, qeyri-adi sehrli gücə malik olan metafizik qüvvələr (Simurq quşu, sehrli xalça, sehrli üzük, dəyənək və s.) təmsil edirlər. Bu iki qütbün gərgin mübarizəsi nəticəsində xeyir qüvvələrin qələbəsi və mənfiliklərin cəmiyyətdə heç zaman özünə yer tapmayacağı qənaəti oxuculara çatdırılır. Odunçu Əhməd, Kərim, Səlim (Ə.Səmədli "Sehrli xalça"), Balqabaq Əhməd, Qəlbinur, Dəmir (Z.Xəlil "Qəlbinurun başına gələnlər") və başqa obrazlar ədəbi nağıllarda müsbət

---

[1] Qarayev Y. Ədəbi üfüqlər. Bakı: Gənclik, 1985, s.9

obrazları təmsil edirlər. Maraqlıdır ki, müsbət-mənfi obraz problemləri əksər hallarda flora və fauna aləminin timsalında təzahür edir.

**"Folklor motivləri əsasında yazlıan əsərlərdə milli dəyərlər"** adlı üçüncü fəsildə 70-80-ci illər uşaq bədii nəsrində folklor ənənələri və bu örnəklərdə milli dəyərlərin rolu məsələlərindən bəhs olunur. Burada ədəbi nağılların yaranmasında ədəbi ənənə rolu oynayan faktorlar dəyərləndirilir, müasir uşaq nəsrində folklor ənənələrinin tipologiyası haqqında ədəbi-tarixi materiallar əsasında ətraflı təhlillər aparılır. Tədqiqatda daha qədim dövrlərə müraciət edilərək türk mifik təfəkkürünün XX əsr nəsr yaradıcılığına təsirinin nəticələri ümumiləşdirilir, ədəbi ənənə və müasirlik kateqoriyalarına aydın, elmi baxış ifadə olunur.

Fəslin **"Folklor motivlərinin nəsrin bədii strukturundakı yeri və mövqeyi"** adlanan birinci bölümündə nəsr təhkiyəsində bədii struktur, milli nəsr yaradıcılığında 70-80-ci illər uşaq nəsri və onun folklor qaynaqları araşdırılır. Folklor nəinki uşaq nəsri, həmçinin, ümumilikdə milli ədəbiyyatımız üçün hər zaman tükənməz mənbə olmuş və ədəbi əsərlərin yaranmasında müstəsna rol oynamışdır. Hər bir xalqın, millətin özünəməxsus maddi və mənəvi dəyərləri var. Məhz bu dəyərlər xalqların qürur mənbəyinə çevrilir. Bunların yaranmasında coğrafi şərtlərlə yanaşı, xalqın mifoloji təfəkkürü və folkloru da mühüm rol oynayır. Tədqiqatçılar göstərir ki, bir xalqı dərindən tanımaq üçün onun milli varlığı olan folklorunu öyrənmək lazımdır. Beləliklə, xalqın illər boyu formalaşan milli dəyərləri, adət-ənənələri, gündəlik həyatı aydın bir şəkildə onun folklorunda özünü göstərir.

Qeyd etmək lazımdır ki, 1970-1980-ci illərin uşaq nəsrindən danışarkən bu nəsrin ən mühüm xüsusiyyəti kimi ədəbi nağılların aparıcı janra çevrilməsini xüsusi qeyd etmək lazımdır. Müharibədən sonra və 1970-1980-ci illərdə ədəbiyyata gələn gənc nəsil sələflərinin ənənələrinə sadiq qalır, özlərinin orijinal dəst-xətləri ilə demək olar ki, uşaq ədbiyyatını yeni məcraya yönəldirdilər.

Folklor motivlərindən istifadə və ona yaradıcı münasibət yolu ilə yaranan müasir nağıllar, hekayə və povestlərin mahiyyəti keyfiyyət baxımından zənginləşməklə bərabər, uşaq nəsrinin xüsusi imkanlarından da xəbər verirdi. Bu, təkcə folklor motivləri, klassik nağıllar əsasında yaranan nəsr əsərlərində deyil, müasir üslublarda qələmə alınan kiçik həcmli hekayələrdə də özünü göstərirdi. Bir faktoru da qeyd etmək lazımdır ki, elmi-fantastik janrlarda (E.Mahmudov, N.Abdullayev) yazılan əsərlərdə təsadüf edilən yeni üslubi keyfiyyətlər müəyyən dərəcədə folklor motivləri

ilə əlaqəli şəkildə meydana çıxırdı. Məhz bu cəhət 1970-80-ci illər uşaq nəsrini xüsusilə əlamətdar edirdi.

Bu dövrdə yazılan nəsr əsərlərinin bəziləri birbaşa, bəziləri isə yaradıcı təxəyyülün məhsulu kimi folklor və onların əsasında yaranan ayrı-ayrı klassik ədəbiyyat nümunələri ilə əlaqəli şəkildə meydana çıxırdı. Əgər Ə.Səmədli, M.Aslan, E.Baxış kimi yazıçılar sırf şifahi xalq ədəbiyyatına müraciət edirdisə, Z.Xəlil, N.Süleymanov və başqaları milli ədəbi ənənələrə, folklor motivlərinə əsaslanır, dünya uşaq ədəbiyyatı nümunələrindən faydalanırdılar. Ş.Perro, A.S.Ekzüperi, H.X.Andersen, R.Kiplinq, C.Rodari, N.Nosov və s. yazıçılardan öyrənən uşaq sənətkarlarımız uşaq marağına daha dolğun cavab verirdilər. Bu da öz növbəsində uşaq nəsrində novatorluq ənənələrininin yeni şəraitdə davamı kimi özünü göstərirdi.

1970-1980-ci illər Azərbaycan uşaq nəsrinin folklora tez-tez müraciət etməsi məhz yuxarıda qeyd etdiyimiz amillərlə bilavasitə əlaqədardır. Adı çəkilən dövrün uşaq ədəbiyyatını xarakterizə edən görkəmli yazıçımız E.Əfəndiyev qeyd edir ki, "Bizim uşaq ədəbiyyatının istedadla yazılmış nümunələrində yazarlarımız uşaqlarla folklora xas olan aydın və şirin dillə danışmağı bacarır, xalq ruhunu qoruya bilir, folklorun əsas motivlərini təşkil edən xeyirxahlıq, dostluq, sədaqət, etibar və qəhrəmanlıq kimi yüksək mənəvi xüsusiyyətləri xalq deyimi tərzinə müvafiq bir təbiiliklə təlqin edir. Bütün bunlar həmin əsərlərə uşaq psixologiyasının və hafizəsinin aparıcı istiqamətini təşkil edən metoformizim gətirir, nəticə etibarilə də uşaq ədəbiyyatının üslubu imkanlarını genişləndirir".[1]

1970-1980-ci illər uşaq nəsri artıq yeni formatda bir növ "keçmişlə gələcək arasında əlaqə" yaratdı. Çünki yazılan əsərlərdə oxucular həm keçmiş, həm indiki, həm də gələcək zamanla tanış olur, keçmiş dövrü öyrənərək gələcək həyatlarını öz təxəyyüllərində canlandırırdılar. Əsərlərdə Molla Nəsrəddin ("Nəsrəddin" – Y.Əzimzadə), Cırtdan ("Cırtdanla Azmanın sərgüzəştləri" – Z.Xəlil), Qulu ("Mərcanqulu" – X.Əlibəyli), Əhməd ("Sehrli xalça" – Ə.Səmədli) kimi əfsanəvi nağıl qəhrəmanları ilə yanaşı, Qara leylək ("Qara leylək" – T.Elçin), Yanıqqulaq (Siçanların toyu" – Ə.Səmədli), Ördək ("Lovğa ördək balası" – Ə.Əhmədova), Qoca çəyirtkə ("Gecə laylası" – F.Tarverdiyev), hətta sırf yazıçı təxəyyülünə söykənən

---

[1] Əfəndiyev E. Azərbaycan uşaq ədəbiyyatı haqqında düşüncələr // "Ulduz" jurnalı №4, 1982, səh. 45

personajlar – Qarpızbaş ("Qəlbinurun başına gələnlər" – Z.Xəlil), Arı adam ("Arı adam haqqında nağıllar" – T.Mahmud) və s. personajlar da iştirak edirlər.

Üçüncü fəslin ikinci bəndi **" Folklor qaynaqlarının ədəbi nağılların yaranmasındakı rolu"** adlanır. 1970-80-ci illər uşaq nəsrinin ən önəmli və maraqlı cəhətlərindən biri yazıçıların xalq ədəbiyyatına, folklora müraciət etmələri idi. Belə ki, onların əksəriyyəti şifahi xalq ədəbiyyatından faydalanaraq uşaqlar üçün ədəbi nağıllar yaradırdılar. Ədəbi nağılların yaranması ilk növbədə kiçik yaşlı oxucuların təfəkkürünün, bədii təxəyyülünün inkişafına gətirib çıxarır, ümumilikdə, uşaq ədəbiyyatının üslubi imkanları genişləndirilir və ən əsası onlarda soykökə, milli dəyərlərə bağlılıq təmin edilirdi. Ədəbi nağıllar kiçik oxucuların psixologiyasına, dünyagörüşünə təsir edir, onların həyata və cəmiyyətə marağını artırırdı. A.Hacıyevin sözləri ilə desək, "...uşaq təfəkkürü nağıl səpkili hekayələrə maraq göstərir. Çünki bu nağıl-hekayələr uşaqların dünya barədə təsəvvürünü genişləndirir, onun xəyalını hərəkətə gətirir".[1]

Bu nağıllarda xalqımızın keçdiyi həyat yolu, mənəvi aləmi, həyat və cəmiyyət haqqında düşüncələri əks edilir. Böyük rus pedaqoqu K.D.Uşinski göstərir ki, "...Nağıllar milli pedaqoji fikrin birinci və parlaq nümunələridir... Heç kəs bu sahədə xalqın pedaqoji dühası ilə yarışa bilməz. Bütün xalq nağılları uşaqlar tərəfindən son dərəcə asanlıqla anlaşılır. Mən uşaq xalq nağıllarını uşaqlar üçün ədəbiyyatçılar tərəfindən yaradılan və yazılan hər hansı bir əsərdən qat-qat üstün tuturam"[2].

Ədəbi nağıllarda hadisələr elə təsvir edilməli idi ki, əsəri oxuyan uşaqlar o qəhrəmanları özlərinə ideal seçsinlər. Ədalətlə zülmün, xeyirlə şərin, işıqla qaranlığın mübarizəsindən və vəhdətindən bəhs edən bu nağıllar kiçik yaşlı oxuculara yaxşını pisdən, əyrini düzdən, doğrunu yalandan ayırmağı öyrədir. Həmin məqamlar həssas və dərin olduğu üçün sənətkarlarımız bu məsələlərə olduqca ciddi yanaşırdılar. Akademik B.Nəbiyev qeyd edir ki, "Uşaq yazıçılarımız xalq nağıllarından mövzu götürüb işləməklə yanaşı, özləri də yeni nağıllar yazırlar. Əsrlərin imtahanından çıxmış nağıl janrı uşaq qəlbinə, fikrinə təsir göstərmək, onu öz ardınca aparmaq üçün bacarıqlı yazıçının əlində çox gərəkli bir ədəbi

---

[1] Hacıyev A. Azərbaycan uşaq ədəbiyyatı tarixi. Bakı: Təhsil, 2009, s.135

[2] Ширер У. Взлет и падение третьего рейха. В 2-х томах.том 1 (пер. с анг.). Москва: Воениздат,1991, с.269

vasitədir. Sahildə durub dənizə baxarkən üfüqlə suyun harada birləşib harada ayrıldığını müşahidə etmək mümkün olmadığı kimi, nağıllarda da bəzən zəngin həyat materialı ilə yaradıcı fantaziyanın bir-biri ilə necə qaynayıb-qarışdığını təyin etmək çətin olar”.[1]

Ədəbi nağıllar yaradarkən yazıçılar üslub baxımından bir sıra məqamlara diqqət yetirirdilər:

1.Dilin sadəliyi, aydınlığı;

2.Nağılların daha əyləncəli məzmuna malik olması;

3.Nağıllarda xalqın məişətinin, gündəlik həyatının, adət-ənənələrinin müfəssəl təsviri.

Qeyd etdiyimiz kimi, 1970-80-ci illərdə yaranan ədəbi nağılların mövzusunun ana xəttini məhz ədalətin zülm, xeyrin şər üzərində qələbə çalması təşkil edirdi. Burada əsas məqamlardan biri kiçik yaşlı qəhrəmanların təpəgözlərə, bədheybət divlərə, hiyləgər qarılara, zalım padşahlara öz ağılları və zəkaları ilə qalib gəlmələri idi. Belə ki, qəhrəmanlar heç bir güc istifadə etmədən məhz öz ağıl və məntiqləri ilə bütün neqativ ünsürləri yox edir, onların mənfi enerjisini neytrallaşdırırdılar. Ümumilikdə yaradılan obrazlar demək olar ki, şifahi xalq ədəbiyyatının nağıllarındakı qəhrəmanların analoqu təsiri bağışlayırdı. Lakin yeni obrazlar çağdaş zamana uyğun, fərqli biçimdə oxuculara çatdırılırdı. Cırtdan, Azman, Qəlbinur, Əhməd (Z.Xəlil – “Azmanla cırtdanın yeni sərgüzəştləri”, “Qəlbinurun başına gələnlər”), Hopbala, Topbala, Əhməd, Şahanə, Kərim (Ə.Səmədli – “Kibrit çöplərinin macərası”, “Sehrli xalça”), Abdulla, Vəli (T.Mahmud – “Bir dərənin sirri”, “Həm gözəl, həm doğma”), Məftun (E.Baxış – “Ağıl”), Üüü (Q.İsabəyli – “Üüü...”), Noğulbala (S.İbrahimov – “Noğulbalanın sərgüzəştləri”) və başqaları bu dövrün yeni uşaq obrazlarını təmsil edirdilər.

**“Uşaq nəsrində mifoloji obrazların bədii dərki”** adlı üçüncü fəslin üçüncü hissəsi türk mifik təfəkkürünün 70-80-ci illər uşaq bədii nəsrinə təsirini əhatə edir. Hələ qədim dövrlərdə ibtidai insanlar obyektiv aləmdə baş verən müxtəlif hadisələrlə qarşılaşdıqları zaman təbii bir maraqla onun necə və haradan qaynaqlandığını öyrənmək istəyirdidir. Lakin təbiət hadisələrinin mahiyyətini dərk etmədikləri üçün onlar haqqında rəvayətlər, əfsanələr yaranırdı. Beləliklə də, ilkin miflər meydana gəldi. Bəşər tarixinin ilk dövrlərində yaranan bu miflər hər bir xalqın ədəbiyyat və incəsənətinin təməlinə çevrilib.

---

[1] Nəbiyev B. Tənqid və ədəbi proses. Bakı, 1976, s.135

Mifoloji görüşlərsiz heç bir xalqın qədim tarixi və mədəniyyəti yoxdur. Ona görə ki, ilk dini təsəvvürlər və qədim mədəniyyətlərin hamısı mənbəyini mifoloji təsəvvürlərdən alır. Ümumiyyətlə, mifologiyaya və onun bədii düşüncənin sonrakı mərhələləri ilə əlaqəsi təxminən son iki yüz ilin Avropa fəlsəfi və bədii düşüncə sisteminə öz möhrünü vurmuşdur. Hətta XIX əsr alman "mifoloji məktəb"inin banisi Fridrix Şellinq "Transsendental idealizm sistemi" əsərində iddia edirdi ki, millət öz əfsanələri ilə doğulur. Kollektiv fəlsəfənin ifadəsi olan düşüncə birliyi xalq əfsanələrində yaşayır və beləcə mifologiya millətin taleyini yaradır.[1]

El ədəbiyyatı və folklor milli ədəbiyyatımızda hər zaman bünövrə olmuşdur. Tədqiqatçı Ə.Əzizov yazır ki, "Azərbaycan klassik uşaq ədəbiyyatının nümunələrinə Nizami Gəncəvinin yaradıcılığında, xüsusilə onun "Sirlər xəzinəsi", "Yeddi gözəl" və "İsgəndərnamə"sində, M.Füzulinin alleqorik əsərlərində, Q.Zakirin və S.Ə.Şirvaninin təmsillərində rast gəlirik".[2] Təbiidir ki, mifoloji obrazlar yazılan əsərlərdə əsas istiqaməti təşkil edir. Yuxarıda qeyd etdiyimiz kimi, Div Azərbaycan folklorunun epik ənənəsində işlənən ən aparıcı antoqonist mifoloji obrazlardır. Nəhəng, qüvvətli, eybəcər və insanabənzər məxluqlar yeraltı aləmin sakinləri kimi göstərilirlər. Onlar "Avesta" təsəvvürlərində olduğu kimi dərin quyuların dibindəki üç otaqlı mağaralarda yaşayırlar. Yeraltı mağaralar Anqra-Manyunun yaratdığı yer qatlarına uyğun şəkildə elə qurulur ki, zəncirvari formada bir-biri ilə sıx əlaqələnə bilsin. Birinci və ikinciyə baş vurmadan birbaşa üçüncüyə, yaxud sonuncu qaranlıq aləmə keçmək mümkünsüzdür. Yalnız ilk otağın sakini – "şər sözlər"in yayıcısını aradan qaldırmaqla "şər fikirlər"in mənzilinə yol açılır, eləcə də ikincinin məhvi ilə "şər əməllər" sahibinin yanına getmək imkanı yaranır.

XX əsrin əvvəllərindən başlanan bu ədəbi istiqamət zaman keçdikcə uşaq nəsri ilə məşğul olan yeni, gənc yazıçıların əsərləri ilə daha zənginləşdi. Çağdaş uşaq nəsrimizdə N.Süleymanov, E.Mahmudov, N.Abdullayev, Ə.Əhmədova, Z.Xəlil, Ə.Səmədli və başqa sənətkarlar xalq ədəbiyyatından, folklor örnəklərindən yaradıcı şəkildə bəhrələnməklə əsərlərində milli koloriti xeyli artırdılar. Onların əsərlərdəki başlıca ideya mənfi-şər qüvvələrə, vəhşiliyə, uşaq təfəkküründə iz qoyan ictimai eybəcərliklərə qarşı daimi mübarizədir.

---

[1] Ширер У. Взлет и падение третьего рейха. В 2-х томах.том 1 (пер. с анг.). Москва: Воениздат,1991, с.269

[2] Əzizov Ə. Uşaqların sevimliləri. Bakı: Gənclik, 1978, s.4

1970-80-ci illərdə ədəbiyyata gələn gənclər bu motivləri daha da zənginləşdirərək ona milli ruh verdilər. Mövzu, problematika baxımından oxşar olsa da, hər bir sənətkar yuxarıda sadalanan problemlərə müxtəlif prizmalardan yanaşırdı. Məsələn, Əli Səmədlinin hekayə və povestlərində divlər daha qədim dövrlərdə, sırf mifoloji obraz kimi verilirsə, Zahid Xəlil uşaq aləmindəki keçmişi, bu günü və gələcəyi təsvir edir. Keçmişdə insanlara zülm edən qorxunc Ağ div uşaqlarla bərabər bu günə və gələcəyə gəlir. Lakin bu gün o, artıq gücsüzdür, zəifdir, hətta kiçik uşaqların gülüş obyektinə çevrilir. O, burada heç kimə hökm edə bilmir, keçmişdə insanları saldığı tilsim gələcəkdə mənasız, boş bir "hava"ya çevrilir, yeganə arzusu isə keçmişə dönüb güclənmək və insanları yenidən öz əsarəti altında saxlamaqdır. Gələcəkdə isə o, muzeyin vitrinində kiçik bir eksponata dönmüşdür.

Maraqlı bir faktı da qeyd etmək lazımdır ki, ənənəvi mifoloji obrazlarla yanaşı, 1970-1980-ci illər uşaq nəsrində sırf yazıçı təxəyyülü ilə yeni "mifoloji obrazlar" yarandı. Bu obrazlardan bəziləri müsbət, bəziləri isə mənfi qütbləri təmsil edirdilər. Əli Səmədli yazdığı ədəbi nağılda ("Kibrit çöplərinin macərası") cansız əşyaları canlandıraraq onlara ekstravakant ad vermişdir: Hopbala və Topbala. Bunlar hər ikisi kibrit çöpləridir. Müxtəlif hadisələrlə zəngin olan bu əsərdə uşaqlar həm qeyri-adi varlıqlarla, həm də kibrit çöplərinin yaranmasında insan zəhməti ilə tanış olurlar. Bu kibrit çöpləri normal insanlar kimi yaşayır, danışır, yeri gələndə "laboratoriya" şəraitində analiz də verirlər.

Folklor örnəklərinin çağdaş uşaq nəsrimizin ayrılmaz bir hissəsinə çevrilməsi, gənc nəslin bunları oxuyaraq gündəlik həyatımızda ədalətsizliyin hər cür təzahürünə qarşı mübariz olmaları onların gələcək inkişafına olduqca müsbət təsir göstərir. Həyat inkişaf etdikcə, müasir qlobal, mədəni inteqrasiya tendensiyasının əhatə dairəsi genişlənərək təsir miqyası dərinləşdikcə bu nəsr əsərlərinin bədii gücü, aktuallığı və sənət dəyəri artır.

"**Nəticə"**də dissertasiyada qaldırılan problemlər ümumiləşdirilir, mövzu ilə bağlı tədqiqat ideyalarına aydınlq gətirilir. Aparılan təhlillərdən göründüyü kimi, keçən əsrin yetmiş-səksəninci illərində Azərbaycan uşaq nəsri mühüm inkişaf yolu keçmiş, mövzu və problematika baxımından özündən əvvəlki uşaq əsərlərindən fərqlənmiş, dövr və mühitə uyğun şəkildə bir sıra orjinal sənət örnəkləri yaranmışdır. Adı çəkilən dövrdə yazılan uşaq nəsr əsərləri öz təyinatına, bədii-estetik təsirinə görə diqqəti daha çox cəlb edir.

Aparılmış araşdırma və təhlillərdən aşağıdakı nəticələr əldə etmişik:

**1.**1970-1980-ci illərdə yaranan uşaq nəsri həmin dövrün bədii nəsr təfəkkürünün tərkib hissəsi kimi bir sıra orijinal xüsüsiyyətlərinə, janr tipologiyasına, mövzu, üslub, ideya-nəzmun və sənətkarlıq cəhətlərinə görə fərqlənmişdir. 70-80-ci illərin uşaq bədii nəsri istər informasiya tutumu, istərsə də janr özünəməxsusluğu ilə fərqlənmiş,uşaq və yeniyetmələrin yaş və bilik səviyyəsinə uyğunlaşdırılmışdır.

**2.**1970-1980-ci illər uşaq nəsrinin ən başlıca mövzusu elm-təhsil, təlim-tərbiyə və milli dəyərlərimizin təbliği olmuşdur. Bu mövzular müxtəlif prizmalardan işlənsə də, məqsəd bir olmuş, uşaq və gənclərin inkişafında önəmli vasitəyə çevrilmişdir. Adı çəkilən dövrün sosial-mədəni prosesləri ilə yanaşı, ədəbi mühit də qeyd edilən mövzuların vaxtaşırı bədii əsərlərə gətirilməsini zərurətə çevirmişdir. Təbiidir ki, uşaq nəsri də bu sahədə özünəməxsus rol oynamışdır.

**3.**Belə nəticəyə gələ bilərik ki, dövrün uşaq nəsrində folklor motivlərinə qayıdış istiqamətində uğurlu nəticələr əldə edilmişdir. Belə ki, mövzuların əksəriyyəti xalq ədəbiyyatından, folklor qaynaqlarından götürülmüş, daha çox dastan, nağıl süjetləri əsasında əsərlər meydana çıxmışdır. Yazıçılarımız klassik folklor motivlərinə yeni ruh, yeni nəfəs gətitmişlər. Bu əsərlər nəinki məzmun cəhətdən, eyni zamanda sənətkarləq baxımından da novator təsir bağışlayır. Z.Xəlilin "Azmanla Cırtdanın sərgüzəştləri", "Qəlbinurun başına gələnlər", Ə.Səmədlinin "Sehrli xalça", "Kibrit çöplərinin macərası", "Siçanların toyu", X.Əlibəylinin "Mərcanqulu", T.Elçinin "Qara leylək", İ.Hümmətovun "Moruqlu bulaq", T.Mahmudun "Müdrik loğmanın şagirdi", S.Qədirzadənin "Quşatan", Ə.Babayevanın "Tut ağacı", B.Həsənovun "Qoca həkim", H.Zeynalovanın "Sünbül kukla" və digər əsərlər folklor mövzularına istinadən qələmə alınmış uğurlu, yaddaqalan sənət nümunələridir.

**4.**Bu da önəmlidir ki, 70-80-ci illərdə yazılan nəsr nümunələrində mənfi və müsbət obrazlar hərtərəfli işlənib, obrazlar yaşadıqları dövrə, mühitə uyğun, öz yaş və bilik səviyyələri fonunda danışır və hərəkət edirlər. Yazıçılarımız müsbət obrazları təqdir etməklə yanaşı, mənfi qəhrəmanları da "itirilmiş" hesab etmir, onların tərbiyələndirilməsi, ağıllı və tədbirli olması, ictimai mühitə uyğun yaşaması üçün də konkret bədii vasitələrə əl atırdılar..

**5.**1970-1980-ci illər uşaq nəsrinin mühüm bir qolunu müasir hekayələr və povestlər təşkil etmişdir. Burada dövrün mühüm özəllikləri, cəmiyyətdə baş verən ictimai proseslər öz əksini tapırdı. İctimai mühit və

bədii qəhrəman amili həmişə bu əsərlərdə vəhdət təşkil edirdi. Ə.Səmədlinin “Qış yuxusu”, R.Yusifoğlunun “Məktəb illəri”, “Çətinliklərlə üz-üzə”, “Medal”, Ə.Əhmədovanın “İtirilmiş uşaqlıq”, T.Mahmudun “Yerə dağılan muncuqlar”, “Gecə qapı döyülür”, N.Süleymanovun “Peşmançılıq” əsərləri və başqa bədii nümunələrdə biz bu həqiqətin təsdiqini görürük.

**6.**Tədqiq edilən dövrün uşaq nəsri daha çox mənəvi-əxlaqi problemlərə marağın artmasi ilə yadda qalırdı. Vətəni sevmək, milli dəyərlərimizə, adət-ənənələrimizə sadiq qalmaq, ata-anaya ehtiram, böyüklərə hörmət, yalan danışmamaq, səmimi olmaq, əsl vətəndaş kimi yetişmək və s. kimi əxlaqi dəyərlər bu dövrdə yaranan uşaq nəsrinin əsasında dayanırdı.

**7.**1970-1980-ci illər uşaq nəsrinin ən mühüm xüsusiyyətlərindən biri yeni uşaq obrazlarının kamil, hərtərəfli işlənməsi ilə bağlı idi. Tədqiq edilən dövr bu xüsusiyyətinə görə özündən əvvəlki uşaq ədəbiyyatından əhəmiyyətli şəkildə fərqlənir. Belə ki, yaranan yeni obrazlar təbiiliyi, dolğun təsviri, inandırıcılığı, səmimiliyi ilə səciyyələnir. İstər hekayə, istər povest, istərsə də ədəbi nağıllarda yaradılmış yeni uşaq obrazları bunun bariz örnəyidir. Bu obrazlar əsərdəki funksiyasına, düşüncə tərzinə, ictimai mühitə münasibətinə görə yeni təsir bağışlayırdı. Azman, Cırtdan, Qəlbinur, Balqabaq Əhməd (Z.Xəlil), Hopbala və Topbala, “professor Filfilberin”, Odunçu Əhməd, Yanıqqulaq (Ə.Səmədli), Damdabaca (Ə.Əhmədova), Kraus Linke, Blek Qobson (E.Mahmudov), Nəsrəddin (Y.Əzimzadə) və s. yeni nəsil uşaq obrazlarını təmsil edirlər.

**8.**1970-1980-ci illər uşaq nəsri zehni-intellektual, məlumat-informasiya tutumu ilə də diqqəti cəlb edir. Uşaq ədəbiyyatı üçün səciyyəvi olan bu faktor tədqiq edilən dövrün uşaq nəsr əsərlərində açıq-aşkar görünməkdədir. Qeyd etdiyimiz bu istiqamət uşaq nəsrinin təlim-tərbiyə prosesində rolunu müəyyənləşdirir. Bu əsərləri mütaliə edən uşaq və yeniyetmələr yalnız bədii zövq almaqla kifayətlənmir, eyni zamanda oxuduqları əsərlərdən dəyərli məlumatlar toplayırlar ki, bu da kiçik oxucunun intellektini və dünyagörüşünü daha da təkmilləşdirməyə imkan yaradır.

**9.**1970-1980-ci illərdə ədəbi nağıllaın yaranması uşaq ədəbiyyatının yeni istiqamətinin formalaşmasını göstərirdi. Bunların bəziləri dramatik, bəziləri isə komik-yumoristik səpkidədir. Hər bir nasir öünəməxsus sarkazm və qrotekslə cəmiyyətdə baş verən ən ciddi problemləri bitkin süjet xətti və anlaşıqlı bir dillə izah edir, cəmiyyətdə baş verənlərin bədii

modelini yaratmaqla kiçik oxucunun ictimai şüurunun və bədii zövqünün cilalanmasına təkan verirdi.

**10.**Keçmiş onilliklərdən fərqli olaraq bu dövrün uşaq nəsrində təlim-tərbiyə və məktəb həyatı ilə yanaşı, cəmiyyət həyatının müxtəlif səpkili problemlərini bədii şəkildə təsviri geniş yer tuturdu. Bu məqam isə 1970-80-ci illər uşaq nəsrinin mövzu hüdudlarını genişləndirməklə onun özünəməxsus, spesifik özəlliklərini səciyyələndirməkdədir.

**Tədqiqatın əsas müddəaları müəllifin aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır**:

**1.**Müasir uşaq nəsrində mifoloji obrazlar. Azərbaycan şifahi xalq yaradıcılığının təbliği və tədrisi// Ulu öndər Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr olunmuş Elmi konfransın materialları, Sumqayıt, 2008, səh. 43-44

**2.**Müasir uşaq nəsrində təlim-tərbiyə məsələləri. Dil və ədəbiyyat/Beynəlxalq elmi-nəzəri jurnal 1(67), Bakı, 2009, səh. 196-198

**3.**Müasir uşaq hekayələrində milli-mənəvi dəyərlər. Dil və ədəbiyyat/Beynəlxalq elmi-nəzəri jurnal 1(67), Bakı, 2009, səh. 152-154

**4.**Azərbaycan uşaq nəsrində yeni mərhələ (1970-80-ci illər). Doktorantların və gənc tədqiqatçıların XIV Respublika Elmi Konfransının materialları, Bakı, 2010, səh. 128-129

**5.**Müasir uşaq nəsrində qəhrəman problemi. SDU Elmi Xəbərlər (sosial və humanitar elmlər bölməsi) cild 6, №3 Sumqayıt, 2010, səh. 41-45

**6.**Müasir uşaq nəsrinin mövzu və məzmun xüsusiyyətləri. Doktorantların və gənc tədqiqatçıların XV Respublika Elmi Konfransının materialları, Bakı, 2011, səh. 51-53

**7.**Азербайджанские детские рассказы 70-80-х годов XX века. «Аспирант и соискатель»//Журнал актуальной научной информации, №6 (66), 2011г., стр. 37-41

**8.**Müasir uşaq nəsrində hekayə janrı (1970-80-ci illər). SDU Elmi Xəbərlər (sosial və humanitar elmlər bölməsi) cild 6, №4 Sumqayıt, 2010, səh. 66-71

**9.**Azərbaycan uşaq povestləri-1970-1980-ci illər. SDU Elmi Xəbərlər (sosial və humanitar elmlər bölməsi) cild 7, №2, Sumqayıt, 2011, səh. 43-47

**10.**Müasir uşaq nəsri yeni mərhələdə-1970-1980-ci illər. Kitabşünaslıq və nəşriyyat işi\elmi-nəzəri və təcrübi jurnal №1(8). – Bakı, 2011, səh. 36-41

**11.**Azərbaycan uşaq nəsrində div surəti. Kitabşünaslıq və nəşriyyat işi\elmi-nəzəri və təcrübi jurnal №2 (7). – Bakı, 2011, səh. 27-32

**12.**Folklor motivləri əsasında yazılmış uşaq əsərlərində milli dəyərlərin təcəssümü (1970-1980-ci illər). Kitabşünaslıq və nəşriyyat işi\elmi-nəzəri və təcrübi jurnal №4, Bakı, 2011, səh. 32-37

**13.**Ədəbi nağıl anlayışı və onun uşaq ədəbiyyatında rolu (1970-80-ci illər uşaq nəsri əsasında). Doktorantların və gənc tədqiqatçıların XVI Respublika Elmi Konfransının materialları, Bakı, 2012, səh. 41-44

**14.**Национально-духовные ценности в современных детских рассказах. Молодой учёный//Ежемесячный научный журнал № 11 (34) / 2011/Том I, Стр. 187-189

**15.**Müasir uşaq nəsrində xarakter problemi. Filologiyanın aktual problemləri : axtarışlar və perspektivlər. Respublika elmi konfransının materialları. – Sumqayıt, 2012, səh. 120-128

**16.**Uşaq və gənclərin estetik tərbiyəsində bədii konflikt faktoru (1970-80-ci illər uşaq nəsri əsasında). SDU Elmi Xəbərlər (sosial və humanitar elmlər bölməsi) cild 7, №2, Sumqayıt, 2012, səh. 29-33

**17.**Çağdaş Azerbaycan çocuk edebiyatı. İstanbul Kültür Üniversitesi: IV Uluslarası Türk dili ve edebiyatı Öğrenci Kongresi/TUDOK 2012, Bildiriler, İstanbul, say. 589-596

**18.**Uşaq xarakterləri və mənəvi-əxlaqi problemlər. SDU Elmi Xəbərlər (sosial və humanitar elmlər bölməsi) cild 10, №2, Sumqayıt, 2014, səh. 28-31

**19.** Müsbət və mənfi obrazlarin ədəbi əsərlərdə mübarizəsi və onun uşaq təfəkkürünə təsiri (1970-80-ci illər) // Kitabşünaslıq və nəşriyyat işi\elmi-nəzəri və təcrübi jurnal №1, Bakı, 2015, səh. 65-69

**МАМЕДОВ Р.М.**

**СОВРЕМЕННАЯ ДЕТСКАЯ ПРОЗА (1970-80 гг)**

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, заключения и использованной литературы.

Во введении диссертации обосновывается актуальность проблемы, определяется объект исследования, а также говорится о цели и задаче, научной новизне, методологической основе, практической и теоретической значимости, строении и апробации работы.

Первая глава («Роль произведений художественной прозы в жанровой и стилистической эволюции детской розы») состоит из трех разделов: «Национальные художественные традиции и их влияние на формирование и вхождение нашей художественной прозы в новый этап», «Типология жанра и тематики Азербайджанских детских рассказов», «Художественно-эстетические особенности повестей и романов в детской прозе». Здесь повествуется о жанровом разнообразии детской прозы 1970-80-х годов, исследуются особенности темы и содержания каждого жанра в отдельности.

Вторая глава («Образная система в детской художественной прозе и ее эстетическое выражение морально-нравственных ценностей в ней») состоит из трех разделов: «Проблема характера в детской художественной прозе», «Роль морально-нравственных ценностей в решение художественных конфликтов», «Позиция положительных и отрицательных образов в художественных произведениях и их влияние на детское мышление». В этой главе дается теоретическая информация о характере и рассматриваются детские образы данного периода с точки зрения положительно-отрицательной оценки. Кроме этого в главе рассматриваются проблемы влияния конфликта произведения на воспитание читателя, разъясняется его роль в обществе и исследуются морально – нравственных проблемы.

Третья глава («Национальные ценности в произведениях написанных на основе фольклорных мотивов») состоит из трех разделов: «Место и позиция фольклорных мотивов в художественной структуре прозы», «Роль фольклорных источников в зарождении литературных сказок», «Художественное осмысление мифологических образов в детской прозе». В этой главе говорится о национальных ценностях и веками формирующихся обычаях и традициях нашего народа. Также дается обширный анализ использования фольклорных мотивов в детской прозе 1970-80-ых годов.

В заключении диссертации дается краткое описание основных научных положений работы.

**R.M.MEMMEDOV**

# THE CONTEMPORARY CHILDREN'S PROSE LITERATURE (70S AND 80S OF THE 20TH CENTURY)

## SUMMARY

It is comprised of a preface, three chapters, conclusion and the list of used literature.

The preface of the dissertation provides reasoning on the topicality of the issue, and informs of the object of the research, its goals and tasks, scientific novelty, methodological basis, theoretical and empirical importance, structure and approbation.

The first chapter ("The role of literal prose in genre and stylistic evolution of children's prose") is divided into three sub-chapters: "National literal traditions and their influence on formation and entering of our literal prose into a new stage", "Typology of the genre and the themes of Azerbaijanian children's stories" and "Literal and aesthetic pecularities of the stories and novels in children's prose". This chapter dwells on the diversity of genres back in the 70s and 80s, with each genre being looked into separately and their topic and content characteristics being analyzed.

The second chapter ("System of images in children's prose: aesthetic reflection of behaviorial values in prose") is composed of three sub-chapters: "Problem of character in children's literal prose", "The role of mental-moral values in the solution of literal desputes" and "Position of positive and negative images in literal works and thei influence on children's thinking". This chapter provides theoretical information on a character and analyzes child characters of that period from general and positive-negative viewpoint. Apart from that, it elaborates broadly on the effects of fiction conflicts on the readers' education and their role in the society, and researches spiritual and moral problems.

The third chapter ("National values in literal works written on the basis of folk motives") is composed of two sub-chapters: "The place and position of folk motives in literal structure of prose", "The role of folk resourses in the origine of literal fairy-tales" and "Literal consideration of myphologic images in children's prose". This chapter speaks about our people's national values and traditions that have been shaping for centuries. It also provides an in-depth analysis on the use of folklore motives and mythological elements in the children's prose literature of 1970-1980s.

The conclusion part provides a short summary of the main scientific outcomes of the dissertation.

**AMEA-nın mətbəəsində çap olunub.**
**Sayı: 100 nüsxə.**

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ**

***На правах рукописи***

**РОВШАН МАМЕДАЛИ оглы МАМЕДОВ**

# СОВРЕМЕННАЯ ДЕТСКАЯ ЛИТЕРАТУРА (1970-80-е годы)

**5716.01 – Азербайджанская литература**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по филологии**

**БАКУ – 2015**